# Xüsusi Təyinatlı Qüvvələrin giziri Anar Nağıyevin şəhadətə yüksəlməsinin üçüncü ildönümü qeyd edilib

Qaradağ rayonunda Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin giziri Anar Nağıyevin şəhadətə yüksəlməsinin üçüncü ildönümünə həsr edilmiş anım mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və azadlığımız və suverenliyimiz uğrunda canından keçmiş qəhrəmanların xatirəsi birdəqiqəlik sükutla anılıb.

Sonra şəhidin həyat və döyüş yolu barəsində məlumat verilib. Şəhid gizir Anar Nağıyev 1989-cu il oktyabrın 30-da Gəncə şəhərində anadan olub. 2008-ci il yanvarın 5-dən 2009-cu il iyulun 3-dək müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2013-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı" kurslarını bitirib.

Vətən müharibəsində Qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı kimi mühüm tapşırıqları uğurla yerinə yetirib, şəxsi şücaət, peşəkarlıq, mərdlik və igidlik nümunələri göstərib. Gizir A.Nağıyev döyüşlərə Murovdağ istiqamətindən başlayıb. Ümumilikdə isə Kəlbəcər, Cəbrayıl, Füzuli, Qubadlı, Ağdərə, Xocavənd, Şuşa ərazisində gedən hərbi əməliyyatlarda iştirak edib. Anar Nağıyev oktyabrın 16-da Xocavənd rayonunun Tuğ kəndi istiqamətində döyüşlər zamanı düşmənin atdığı minaatandan qolundan və ayağından qəlpə yarası alıb. Füzuli hospitalına təxliyə olunsa da az müddətdən sonra təkidlə yenidən cəbhə zonasına qayıdıb. Anar Nağıyev Şuşanın işğaldan azad edilməsi uğrunda döyüşlərdə birbaşa iştirak etmək istəyirmiş. Buna görə də oktyabrın 27-də silahdaşlarının yanına qayıdaraq düşmənlə döyüşməyə davam edib. A.Nağıyev noyabrın 6-da Şuşada üzbəüz döyüşlər zamanı güllə yarası alıb. Noyabrın 8-də Azərbaycan bayrağı Şuşada dalğalandıqdan sonra "Şuşa alındı" deyərək şəhadətə qovuşub.

Şəhid Anar Nağıyev bir sıra hərbi əməliyyatların, o cümlədən Aprel döyüşlərinin də iştirakçısı olub.

Ölkə başçısının müvafiq sərəncamları ilə Anar Nağıyev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aydın Hüseynov Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı şanlı Qələbədən, bu il sentyabrın 19-20-də keçirilən 24 saatlıq antiterror əməliyyatından bəhs edib. Bildirilib ki, ordu quruculuğuna yetirilən xüsusi diqqət, gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi istiqamətində görülən işlər nəticəsində üçrəngli bayrağımız uzun illər həsrətində olduğumuz həmin torpaqlarda dalğalanır, suverenliyimiz isə tam bərpa edilib.

"Xankəndidə Vətən müharibəsində əldə edilən Qələbənin üçüncü ildönümünə həsr olunan hərbi paradın keçirilməsi isə Azərbaycan xalqının, Silahlı Qüvvələrimizin nəyə qadir olmasının sübutu, dünyaya göndərilən bir mesaj idi. Təbii ki, torpaq, yurd həsrətimizin belə möhtəşəm zəfər və qələbələrlə başa çatması bizə asan başa gəlmədi. Bu yolda Anar Nağıyev kimi qəhrəman oğullarımızı qurban verdik. Hər birimiz o torpaqlara ayaq basdıqca şəhidlərimizi böyük minnətdarlıq hissi ilə xatırlayacaq, onların cəsarətini, məğrurluğunu və qorxmazlığını gələcək nəsillər arasında təbliğ edəcəyik", - deyə A.Hüseynov qeyd edib.

Şəhidin döyüş yoldaşları onunla bağlı xatirələrini bölüşüb, 44 günlük müharibə zamanı göstərdiyi çoxsaylı şücaət və igidlik nümunələrindən danışıblar.

Tədbirdə şəhidlərin ruhuna müqəddəs kitabımız olan Qurani-Kərimdən ayə və surələr oxunub, həmçinin mərsiyələr və vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.

Azərbaycan. - 2023.- 19 noyabr, № 252.- S.12.